# TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının iclası keçirilib

**Aprelin 20-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) İqtisadi əməkdaşlıq komissiyasının videokonfrans formatında 10-cu iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğız Respublikasının qurumdakı nümayəndə heyətlərinin üzvləri iştirak ediblər. Azərbaycan nümayəndə heyətini Milli Məclisin deputatı Ağalar Vəliyev təmsil edib.

TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının sədri vəzifəsini icra edən, Qazaxıstan Respublikası Parlament Məclisinin üzvü Anas Bakkojayev iclası açaraq diqqətə çatdırıb ki, tədbir "TÜRKPA üzv ölkələrinin ticarət-iqtisadi potensialının inteqrasiyası: yeni reallıqda gələcək nəqliyyat karkası" mövzusuna həsr olunub.

Sonra iclasda TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək qurumun üzv dövlətləri arasında əlaqələrin inkişafından və bu sahədə parlamentlərin rolundan danışıb.

Daha sonra toplantıda qeyd olunan mövzuya dair hesabat məruzəsinin layihəsi dinlənilib. Komissiya üzvləri hesabat məruzəsini və tövsiyə qərarını TÜRKPA-nın növbəti plenar iclasında baxılmaq üçün təsdiq ediblər. Həmçinin iclasda "Rəqəmsal maliyyə aktivləri haqqında" model qanun layihəsi müzakirə edilib, gündəliyə daxil olan digər məsələlərə baxılıb, komissiyanın növbəti iclasının mövzusu müəyyənləşdirilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2023.-21 aprel.- S.6.